**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI**

# ƏL/TMM ÜZRƏ QANUNVERİCİLİYİN POZULMASINA DAİR RİSKİN VƏ ONUN DƏRƏCƏLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ ÜÇÜN AUDİTORLAR ARASINDA ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ ÜZRƏ SORĞU SUALLARI CƏDVƏLİ


***İcraçılar:***

*Auditin hüquqi tənzimlənməsi və*
*dövlət orqanları ilə iş idarəsinin rəisi* *Elnur İbrahimov*

*Auditin hüquqi tənzimlənməsi və*
*dövlət orqanları ilə iş idarəsinin rəis müavini* *Bəhruzə Qasımova*


**BAKI - 2023**

**ƏL/TMM ÜZRƏ QANUNVERİCİLİYİN POZULMASINA DAİR RİSKİN VƏ ONUN DƏRƏCƏLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ ÜÇÜN AUDİTORLAR ARASINDA ÖZÜNÜQİYMƏTLƏNDİRMƏYƏ DAİR SORĞU SUALLARI CƏDVƏLİ**

ƏL/TMM üzrə qanunvericiliyin pozulmasına dair riskin və onun dərəcələrinin müəyyən edilməsi üçün auditorlar arasında özünüqiymətləndirməyə dair Sorğu Sualları Cədvəli "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" 30 dekabr 2022-ci il tarixli 782-VIQ nömrəli Azərbaycan Respublikası Qanununun müddəalarına və "Azərbaycan Respublikası Auditorlar Palatasının PL/TMM üzrə nəzarət funksiyalarının təkmilləşdirilməsi barədə" Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2023-cü il 06 fevral tarixli 1/6 nömrəli sərəncamının 1-ci bəndinə əsasən hazırlanmışdır.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə atılmış addımlar ölkəmizdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə səylərin gücləndirilməsinə, bu sahədə müxtəlif iştirakçılar – məhkəmə və cinayət təqibi orqanları, nəzarət orqanları, digər səlahiyyətli qurumlar, habelə özəl sektor arasında əməkdaşlıq imkanlarının artırılmasına və ölkənin iqtisadi sistemindən qeyri-qanuni məqsədlər üçün istifadə imkanlarının məhdudlaşdırılmasına istiqamətlənən tədbirlərin sistemli və əlaqəli şəkildə həyata keçirilməsinə əlverişli şərait yaradır.

Ölkəmizdə aparılan çoxşaxəli dövlət quruculuğu, iqtisadi və məhkəmə-hüquq sistemi islahatlarının tərkib hissəsi kimi, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində də ötən dövr ərzində bir sıra işlər görülmüş və mühüm nəticələr əldə olunmuşdur. Bu sahədə beynəlxalq standartları müəyyən edən FATF tövsiyələrinə uyğun olaraq yeni qanunlar qəbul edilmiş, ölkədaxili əməkdaşlığın təmin edilməsi üçün yeni mexanizmlər formalaşdırılmış, ixtisaslaşmış institutların fəaliyyət effektivliyinin artırılması üçün addımlar atılmış, həmçinin müvafiq sahədə beynəlxalq əməkdaşlıq imkanları genişləndirilmişdir.

2022-ci ilin 30 dekabr tarixində "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasinin Qanunu qüvvəyə minmişdir. Həmin Qanunun 16.1.6-cı maddəsinə görə auditor xidməti göstərən şəxslərə münasibətdə nəzarət orqanı Azərbaycan Respublikasının Auditorlar Palatası müəyyən edilmişdir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin *598.9. maddəsinə əsasən Auditor xidməti göstərən şəxslər tərəfindən "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş monitorinq olunmalı əməliyyatlara dair məlumat və sənədlərin təqdim edilməsi və ya məlumat və sənədlərin*

*saxlanmasına dair tələblərə riayət olunmamasına, yaxud maliyyə monitorinqi orqanının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində maliyyə monitorinqi orqanının verdiyi yazılı göstərişlərin vaxtında və ya tam icra edilməməsinə, həmçinin nəzarət orqanlarının fəaliyyətinə maneələrin yaradılmasına, sorğulara cavab verilməməsinə, tələb olunan məlumat və sənədlərin təqdim edilməməsinə, yanlış məlumat və sənədlərin verilməsinə görə -*

*vəzifəli şəxslər səkkiz yüz manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on beş min manatadək məbləğdə cərimə edilir.*

*598.10. "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada aktivlərin dondurulması üzrə tədbirlərin görülməməsinə, hər bir fiziki şəxs və ya quruma görə -*

*vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər otuz min manatdan əlli min manatadək məbləğdə cərimə edilir.*

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda İXM-nin 598.9-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

70-6.2. digər hallarda Azərbaycan Respublikasının Auditorlar Palatası adından – Auditorlar Palatasının sədri, onun müavini, Aparatın rəhbəri tərəfindən imzalanır.

70-7.Həmin məcəllənin 598.10-cu maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

70-7.7. auditor xidməti göstərən şəxslərə münasibətdə Azərbaycan Respublikasının Auditorlar Palatası adından – bu Siyahının 70-6.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər müəyyən edilmişdirlər.

Özünüqiymətləndirməyə dair Sorğu Sualları Cədvəli 6 bölmədən ibarətdir:

1. Auditor xidməti göstərən şəxslər tərəfindən müştərilərin və benefisiar mülkiyyətçilərin Müştəri uyğunluğu tədbirləri;
2. Xarici dövlətlərin siyasi xadimləri;
3. Sənədlərin saxlanması öhdəliyi;
4. Məlumatların təqdim olunması;
5. Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin doldurulması;
6. Daxili nəzarət sistemi.

Yuxarıda qeyd olunanları nəzərə alaraq qanunpozuntusunu aşkar etmək məqsədilə Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi tərəfindən kameral qaydada Özünüqiymətləndirməyə dair Sorğu Sualları Cədvəli hazırlanmışdır. Həmin cədvəl, məlumat toplamaq və ƏL/TMM üzrə qanunpozuntusu riskinin

müəyyən edilməsi üçün auditorlar tərəfindən doldurulmalı və qiymətləndirilmək üçün 5 iş günü ərzində Palataya təqdim edilməlidir. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi iki ay müddətində həmin Özünüqiymətləndirməyə dair Sorğu Sualları Cədvəlində olan məlumatları emal etməli və Palata rəhbərliyinə təkliflər təqdim etməlidir. Təkliflərin nəticəsi olaraq Palata rəhbərliyi auditor təşkilatı və ya sərbəst auditorun ƏL/TMM üzrə fəaliyyətinin araşdırılması üçün qərar qəbul edə bilər.

Layihə

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının üzvləri olan**
**auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara**

**Hörmətli üzvlər!**

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən (bundan sonra-ƏL/TMM Qanunu) auditor xidməti göstərən şəxslər Qanunun 11.2-ci və 11.3-cü maddələrində göstərilən hallarda Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə məlumat təqdim etməlidirlər.

Bu Qanunun 16.1.6-cı maddəsinə əsasən auditor xidməti göstərən şəxslərə münasibətdə nəzarət orqanı Azərbaycan Respublikasının Auditorlar Palatası müəyyən edilmişdir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin *598.9. maddəsinə əsasən Auditor xidməti göstərən şəxslər tərəfindən "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş monitorinq olunmalı əməliyyatlara dair məlumat və sənədlərin təqdim edilməsi və ya məlumat və sənədlərin saxlanmasına dair tələblərə riayət olunmamasına, yaxud maliyyə monitorinqi orqanının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində maliyyə monitorinqi orqanının verdiyi yazılı göstərişlərin vaxtında və ya tam icra edilməməsinə, həmçinin nəzarət orqanlarının fəaliyyətinə maneələrin yaradılmasına, sorğulara cavab verilməməsinə, tələb olunan məlumat və sənədlərin təqdim edilməməsinə, yanlış məlumat və sənədlərin verilməsinə görə inzibati məsuliyyət (cərimə) müəyyən edilmişdir.*

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda İXM-nin 598.9-cu və 598.10-cu maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokoların tərtib etmək və imzalamaq səlahiyyətləri Azərbaycan Respublikasının Auditorlar Palatasına verilmişdir.

Sizdən xahiş olunur ki, kameral qaydada qanunpozuntusunu aşkar etmək, ƏL/TMM üzrə qanunpozuntusu riskinin və Qanunun icra vəziyyətini müəyyən edilməsi məqsədilə Özünüqiymətləndirməyə dair Sorğu Sualları Cədvəlini dolduraraq Azərbaycan Respublikasının Auditorlar Palatasına 5 iş günü ərzində göndərəsiniz.

--

**Hörmətlə,**

Zaur Almazov
Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri

www.audit.gov.az Tel.: 012 498 28 55 Mob.: 050 321 95 80